# Ümumbəşəri vəzifə

2009-cu il "Uşaq ili"

**Müasir dünyada sağlam nəsil yetişdirmək bir nömrəli vəzifə kimi qarşıda durur. Xüsusi proqramla fəaliyyət göstərən "Sağlam nəsil" İctimai Birliyi də belə bir vəzifənin yerinə yetirilməsinə xidmət edir. Birliyin prezidenti Eldar Əlizadə ilə söhbətimiz də bu barədədir.**

***- Eldar müəllim, əvvəlcə "Sağlam nəsil" proqramının məqsəd və vəzifələri, əsas istiqamətləri barədə oxucularımıza məlumat verməyinizi xahiş edirik.***

- Bəri başdan deyim ki, Respublika Prezidenti cənab İlham Əliyevin fərmanı ilə 2009-cu il "Uşaq ili" elan olunmuşdur. Bu fərman uşaqların sağlamlığının qorunmasına köməklik göstərən bir təşkilat kimi bizim də məsuliyyət hissimizi artırır. "Sağlam nəsil" proqramı - sağlam həyat tərzinə, insan haqqında biliklərə malik olmaq məsələlərini ön plana çəkir, əlverişli psixoloji-mənəvi şəraitin formalaşdırılmasına yönəldilmiş kompleks tədbirlər sistemini həyata keçirir. Proqramda yetişməkdə olan nəslin sağlamlığının qorunması və möhkəmləndirilməsinə cavabdeh olan, bütün xidmət sahələrində fəal iş metodları ilə fəaliyyət göstərən insanlar tələb olunur. Sirr deyildir ki, uşaqlar arasında şəkərli diabet, anemiya, böyrək xəstəlikləri, bronxial astma, anadangəlmə qüsurlar, qan dövranı sisteminin xəstəlikləri mövcuddur. Bütün həkimlər, ictimaiyyət, eyni zamanda qeyri-hökumət təşkilatları uşaqlar arasında yayılan xəstəliklərin qarşısını almaq üçün ciddi səy göstərməlidirlər. Proqramımızın əsas məqsədi böyüməkdə olan nəslin sağlamlığının qorunması və möhkəmləndirilməsidir. Bunun üçün nə etmək lazımdır? Əsas vəzifəmiz bu sualdan doğur. Sağlam uşaqların doğulmasına, onların sağlamlığının qorunmasına və möhkəmləndirilməsinə, diaqnostikanın düzgün təşkilinə yönəldilmiş tədbirlərin təşkili, xidmət sahələrinin sıx əlaqəli fəaliyyət göstərmələrinə nail olmaq zəruri şərtdir. Bundan başqa, məktəbəqədər və məktəb yaşlı uşaqların ev şəraitində sağlam həyat tərzi keçirmələrinə, onların düzgün qida rejiminə malik olmalarına, adaptasion stressin enməsinə, xəstəliklərin erkən profilaktikasının və korreksiyasının təşkilinə nail olmaq mühüm vəzifələrimizdən sayılır.

Qarşıya qoyduğumuz xeyirxah vəzifələrin uğurla həll olunması, başqa sözlə, uşaqların sağlamlığının qorunması üçün "Sağlam ailə-sağlam uşaq"və "Sağlam nəsil" bölmələri üzrə ümumi tibbi-təşkilati tədbirlər həyata keçirirık.

Bəşəriyyətin yaranışından başlayaraq minilliklər boyu hər bir dövlət, hər bir millət, hər bir valideyn sağlam nəslin yetişməsi arzusunda olmuşdur. Buna baxmayaraq müxtəlif dövrlərdə əhalinin reproduktiv pisləşmə prosesi baş vermişdir. Buna keçən əsrin 80-ci illərini misal göstərmək olar. Həmin illərdə doğuşların azalması müşahidə olundu. Hamilə qadınların xəstəlikləri, doğuş və zahılıq dövrünün patalogiyası, uşaqların xəstələnmə və ölüm halları çoxaldı. Sonra da qadının yalnız bir uşaq doğması, bir növ, adət halına düşdü. Təbiidir ki, uşaqların az olması sabah valideynlərin az olmasına, valideynlərin azlığı isə əhalinin azlığına öz təsirini göstərməyə bilməz. Unutmaq olmaz ki, sağlam nəslin formalaşması-ümumbəşəri vəzifədir. Demək olar ki, həyatın bütün fəaliyyət dairəsi bu vəzifə ilə sıx təmasda və əlaqədə olur. Bütün bunları nəzərə alsaq inamla deyə bilərik ki, sağlam nəsil yetişdirmək- bütün cəmiyyətin, hər bir insanın borcudur.

***- Son aylarda gördüyünüz işlər barədə qısa məlumat verərdiniz?***

Qeyd etməliyəm ki, sağlam analıq böyük nemətdir, böyük xoşbəxtlikdir. Sağlam analıq məfhumu həm ananın, həm də uşağın sağlamlığının çoxsaylı aspektlərini-doğuşa qədər, doğuş və zahılıq dövründə mövcud olan fiziki, psixoloji faktorları, eləcə də sağlam uşaqlığa hazır olan körpənin doğulmasını əhatə edir.

Sağlam həyat tərzinin təbliği, analıq problemi üzrə maarifləndirmə işi əsas fəaliyyət istiqamətlərimizdəndir. Bu məqsədlə kütləvi informasiya vasitələrindən, tibbi mövzularda yazılmış müxtəlif nəşr materiallarından faydalanırıq, sağlamlıq aksiyaları keçiririk.

Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə "Sağlamlıq haqqında ümumi anlayış", "Düzgün qidalanma haqqında ümumi anlayış", həmçinin "Şirinq- Bayer" firması ilə birlikdə "Sağlamlığına inan" adlı kitablar nəşr etdirib yaymışıq.

Gənclər və yeniyetmələrlə sağlamlıq mövzularında vaxtaşırı olaraq treninqlər, səhiyyə işçiləri ilə görüşlər, xeyriyyə aksiyaları və s. təşkil etmişik.

"İdman sağlamlıqdır", "Qida rasionunun əsas şərtləri", "Hansı hallarda insan özünü yorğun hiss edir", "Yuxu rejimi" və başqa mövzularda mərasimlər keçirmişik.

Ailənin sağlamlaşmasına kompleks yanaşmaq metodları daha da təkmilləşdirilmişdir.

***- Birlik tərəfindən yaxın gələcəkdə hansı işlərin görülməsi nəzərdə tutulmuşdur?***

- Biz ailə məsələlərinə, uşaqların sağlamlığına həsr edilmiş genişmiqyaslı sosioloji tədqiqatlar aparacağıq. Televiziya və radio verilişlərində, mətbuat səhifələrində yetişməkdə olan gənc nəslin sağlam həyat tərzinə kömək edəcək materialların verilməsi yenə də diqqət mərkəzində olacaqdır. Ana və uşaqların sağlamlığının qorunması məqsədi ilə səhiyyədə yeni texnologiyanın tətbiqinə səy göstəriləcəkdir. Metodiki ədəbiyyatın nəşri davam etdiriləcək, yaxın günlərdə "Gənc valideynlərə məsləhət", "Sağlam ailə - sağlam uşaq", "Necə sağlam olmaq olar" adlı metodiki məcmuələr buraxacağıq. Erkən diaqnostika təşkil ediləcək, xəstəliklərin, adaptasion stressin azaldılması təmin ediləcək, ümumi informasiya mühiti yaradılacaqdır.

İctimai Birliyin fəaliyyətinin canlandırılmasında həkimlərdən tibb elmləri doktoru Nigar Kamilova, Arzu Məmmədova, Könül Abbasova və başqaları xüsusi səy göstərir, sağlam nəsil yetişdirmək işində bilik və bacarıqlarını əsirgəmirlər.

Bu bir həqiqətdir ki, uğurlu nəticələr qazanmaq, yaxşı hazırlıqlı kadrlardan çox asılıdır. Bunu nəzərə alaraq sağlam nəsil yetişdirmək işinə kömək məqsədi ilə treninq kursları təşkil edəcəyik. Artıq bunun üçün tədris proqramı hazırlamışıq.

● **Canalı MİRZƏLİYEV**